# Yeni doğulan uşaqlara elektron sağlamlıq kartları veriləcək

## Sistemin tətbiqi 2008-ci ildə yekunlaşacaq

*Ü.FƏRZƏLİYEVA*

**Səhiyyənin müxtəlif sahələrini əhatə edən ayrı-ayrı Dövlət Proqramlarının məqsədi, vəzifələri barədə və tətbiqi sahəsində həyata keçirilən tədbirlərlə bağlı «Tibb qəzeti»ndə dərc edilən materialların davamı kimi bu dəfə "«Elektron sağlamlıq kartı» sisteminin tətbiqi Qaydaları" haqqında söhbət açacağıq.Qeyd edək ki, "«Elektron sağlamlıq kartı» sisteminin tətbiqi Qaydaları" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 21 oktyabr tarixli 1055 nömrəli sərəncamı ilə təsdiq edilən «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)»a əsasən hazırlanıb. «Elektron sağlamlıq kartı» sisteminin tətbiqi Qaydaları» Nazirlər Kabinetinin 2006-cı il 12 iyun tarixli 143 nömrəli qərarı ilə təsdiq edilib.**

Bu haqda daha ətraflı məlumatı bizə Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) direktor müavini Cəbrayıl Əsədzadə verdi: «Elektron sağlamlıq kartı» sisteminin tətbiqində əsas məqsəd müvafiq elektron registrlərin hazırlanması vasitəsilə vətəndaşların sağlamlıq vəziyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi və insanların sağlamlığı barədə operativ məlumat bankının yaradılmasıdır. Bu günə qədər hər bir şəxs haqqında tibbi məlumatlar tibb müəssisələrində kağız üzərində və pərakəndə şəkildə idi. Amma Səhiyyə Nazirliyi tərəfindən tətbiq olunan sağlamlıq kartları şəxsi, tibbi və sığorta məlumatlarını özündə cəmləşdirən elektron informasiya sisteminin mövcud olmasına imkan verir. Sağlamlıq kartı sisteminə daxil edilən məlumatlar Səhiyyə Nazirliyinin İnformasiya Mərkəzində cəmləşdirilir. Sağlamlıq kartı sistemində olan məlumatlar (xəstəlik tarixi, cari istifadə edilən dərman preparatları, peyvəndlər, tibbi sığorta və s.) kart sahibinə operativ və dəqiq müayinə olunmaq imkanı yaradır. Bu, müasir standartlara uyğun informasiya sistemidir».

C.Əsədzadənin sözlərinə görə, kartda olan informasiya təcili tibbi yardım maşınlarında, xəstəxanaların qeydiyyat şöbələrində, laboratoriyalarda, apteklərdə və s. kompyuterlərə qoşulmuş xüsusi qurğular vasitəsilə oxuna və dəyişdirilə bilər. O həmçinin bildirdi ki, elektron informasiya sistemi ilkin mərhələdə uşaq kontingentinə xidmət edən tibb müəssisələrini əhatə edəcək: «Vətəndaşların sağlamlığı ilə bağlı qeydlər əsasən, yerlərdəki lokal bazalarda saxlanılacaq, ümumi respublika səviyyəsində maraq doğuran məlumatlar isə Səhiyyə Nazirliyinin informasiya mərkəzində yerləşdiriləcək. Artıq sistemin iştirakçıları olan müəssisələrdə lokal informasiya bazalarına daxil olmaq və əməliyyat aparmaq üçün kompyuter avadanlığı və proqram təminatı quraşdırılır. Sistemin iştirakçıları olan doğum evlərində və ya xəstəxanaların doğum şöbələrində yeni doğulmuşların ilkin qeydiyyatı aparılaraq, məlumatlar sistemə daxil ediləcək. Həmin məlumatlar yeni doğulmuşun qeydiyyatda olması nəzərdə tutulan poliklinikaya göndəriləcək. Əgər doğuş hər hansı səbəbdən doğum evindən kənarda baş verərsə, yeni doğulmuş körpənin qeydiyyatı müvafiq uşaq poliklinikası tərəfindən həyata keçiriləcək. Poliklinika həm doğum evləri, həm də özü tərəfindən qeydiyyata alınmış hər bir yeni doğulmuş uşaq üçün onların valideynləri və yaxud qanuni nümayəndəsi tərəfindən təsdiq edilmiş «Kartın verilməsi üçün anket» əsasında sağlamlıq kartını xüsusi avadanlıqlarla təchiz olunmuş İSİM-ə sifariş edəcək. Kartlar hazırlanaraq onları sifariş edən poliklinikalar vasitəsilə uşaqların valideynlərinə və ya qanuni nümayəndələrinə veriləcək. Bu, insanlara gələcəkdə daha keyfiyyətli, effektiv və sürətli müayinə və müalicə olunmaq imkanı yaradacaq».

Müsahibimiz həmçinin bildirdi ki, mikroprosessorlu çiplə təchiz edilmiş plastik elektron kartların üzərində müəyyən məlumatlar olacaq: «Ancaq əsas informasiyalar onun çipində yerləşdiriləcək. Həmin məlumatları Səhiyyə Nazirliyi



tərəfindən xüsusi avadanlıqlarla təchiz edilmiş tibb müəssisələrində tez, tam doğru, təhlükəsiz şəkildə əldə etmək mümkün olacaq. Qeyd edim ki, gələcəkdə sağlamlıq kartlarında sığorta ilə bağlı məlumatların yerləşdirilməsi də nəzərdə tutulub».

Sistemin yaradılması istiqamətində işlərin icrasına artıq başlan-




dığını deyən C.Əsədzadə kartların ancaq yeni doğulmuş körpələrə veriləcəyini vurğuladı. Onun sözlərinə görə, sentyabr ayının sonuna qədər Nəsimi rayonunda 6 uşaq müəssisəsinin sağlamlıq kartı sisteminə qoşulması nəzərdə tutulur. Pilot rayonunun işi nəticəsində hansısa çatışmazlıqlar ortaya çıxarsa, onlar müəyyən ediləcək və aradan qaldırılacaq. Bu ilin sonuna qədər Bakı şəhərinin bir neçə rayonunda yerləşən tibb müəssisələri yeni sistemə keçəcək».

C.Əsədzadə yeni doğulmuşlarla yanaşı, uşaq poliklinikalarında qeydiyyatda olan digər uşaq kontingentinin də informasiya sisteminə daxil ediləcəyini bildirdi: "Sadəcə, fərq ondadır ki, yeni doğulmuşlara sağlamlıq kartları veriləcək, digərlərinə isə kart verilməsə də, məlumatlar sistemə daxil ediləcək. Bundan sonra onların da sağlamlığı ilə bağlı istənilən vaxt informasiya əldə etmək mümkün olacaq".

Sağlamlıq kartı sisteminin strukturu haqqında məlumat verən Cəbrayıl müəllim qeyd etdi ki, bu, Mərkəzi İnformasiya Bazasının və müvafiq tibb müəssisələrinin proqram təminatlarından, müəssisənin personal kompyuterinə qoşulmuş xüsusi oxuyucu qurğulardan və mikroprosessorlu çip ilə təchiz edilmiş, saxtalaşdırılması mümkün olmayan elektron kartlardan ibarətdir: "Tibb müəssisəsinin rəhbəri tərəfindən sağlamlıq kartı sisteminin proqramı ilə işləmək hüququ verilən əməkdaş proqrama daxil olaraq, kart sahibinin kartında əməliyyatlar apara bilər. Aparılmış əməliyyatlar haqqında məlumat proqramda qeyd olunur. Bütün gün ərzində aparılan əməliyyatlar elektron şəkildə İnformasiya Mərkəzinə göndərilir".

Sağlamlıq kartı sisteminin registrinin yaradılması və aparılmasına gəlincə isə, müsahibimiz vətəndaşların sağlamlıq vəziyyətinin qeydiyyatının aparılması məqsədi ilə Səhiyyə Nazirliyinin İnformasiya Mərkəzində sağlamlıq kartı sisteminin elektron registri bankının yaradıldığını söylədi. Registrə və sağlamlıq kartına şəxsi, tibbi, immunlaşdırma və qanunvericiliklə müəyyən olunmuş digər tibbi məlumatların daxil ediləcəyini vurğuladı.

İSİM-in direktor müavini daha sonra sağlamlıq kartını itirən və ya kartı zədələnmiş şəxslər üçün yeni kart hazırlanacağını və İnformasiya Mərkəzində saxlanılan informasiyanın yeni kartın yaddaşına yazılacağını dedi. Bildirdi ki, itirilmiş və ya zədələnmiş kartlar istifadəsi qadağan olunmuş kartlar siyahısına daxil edilərək bloklanacaq.

C.Əsədzadənin sözlərinə görə, sağlamlıq kartının sahibi haqqında informasiyanın əldə edilməsi və dəyişikliklərin aparılması məqsədi ilə sistemə yalnız tibb müəssisəsinin rəhbərliyi tərəfindən müvafiq icazəsi olan şəxslər daxil ola bilərlər. Qanunla müəyyənləşdirilmiş konfidensial məlumatların yayılması isə qadağandır: «Vətəndaşın tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlığının vəziyyəti, müayinə və müalicə vaxtı əldə edilən digər məlumatlar barədə informasiya vətəndaşın məlumat sirrini təşkil edir. Vətəndaşın verəcəyi məlumatın gizli saxlanması haqqında ona zəmanət verilir. Müəssisələr tərəfindən vətəndaşların sağlamlıq və müayinə nəticələrinə aid məlumatların məxfiliyi təmin edilməlidir. Sağlamlıq kartında olan məlumatlar istifadəçinin razılığı ilə və ya qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda açıqlana bilər».

Cəbrayıl müəllim sağlamlıq kartı sisteminin fəaliyyəti üçün tibb müəssisələrinin avadanlıqlarla və digər ləvazimatlarla təchiz olunacağını, sağlamlıq kartı sisteminin tətbiqi üçün tələb olunan xərclərin müvafiq illər üzrə dövlət büdcəsinin «Səhiyyə» bölməsinin mərkəzləşdirilmiş xərclərində nəzərdə tutulmuş vəsait dairəsində həyata keçiriləcəyini dedi.

Sonda «Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)»da qeyd edilən vaxtda «Elektron sağlamlıq kartı» sisteminin tətbiqini yekunlaşdırmağa çalışacaqlarını deyən müsahibimiz 2008-ci ildə respublikanın bütün uşaq tibb müəssisələrinin bu sistemlə əhatə ediləcəyinə inandığını vurğuladı.

BAŞ SPONSOR: HB Co LTD
Sağlam gələcək - bizimlə gələcək!
Azərbaycan, Bakı - AZ 1108 Atatürk pr-ti 3078 Tel.: (99412) 563 37 17, 563 41 01
Faks: (99412) 436 05 28 E-mail: hbcoltd@ultel.net www.hb-med.com